# Əsas sözlər: Tualet və duş kresloları

| Termin | Anlayışı | Şəkli |
|---|---|---|
| **Artrit** | Oynaqların sərtləşməsi və hərəkət etdirən zaman ağrılı olması ilə müşayiət olunan sağlamlıq problemi. | |
| **Özünü tənzimləyən təkərlər** | Diyirləndikcə fırlanan (dönən) təkərlər. Misal olaraq, ofis stullarındakı kiçik təkərləri və ya təkərli oturacaqların qabağındakı təkərləri göstərmək olar. | |
| **Kateter** | Sidik kisəsindən sidiyi boşaltmaq üçün istifadə olunan yumşaq boru. Böyrəklərini sərbəst şəkildə və ya öz istəyi ilə boşalda bilməyən şəxslər istifadə edir. Kateterin növündən asılı olaraq, digər avadanlığa, məsələn, ayaq çantasına ehtiyac olur. |  |
| **Ətraf mühitdəki maneələr** | Şəxsin ətraf mühitində (məsələn, onların evinin içində və ya ətrafında, yaxud icmada) olan və onun hərəkət etmək qabiliyyətinin qarşısını alan və ya hərəkət etmək qabiliyyətinə əngəl yaradan maneələr. Ətraf mühitdəki maneələrə aşağıdakıları misal göstərmək olar:<br>• Təkərli oturacaqda olan şəxsin işini çətinləşdirən pilləkənlər;<br>• Yerimək üçün çərçivədən istifadə edən şəxslərin keçə bilmədiyi dar qapı yeri. | |
| **Zəif** | Zəif, kövrək və enerjisi az. Çox vaxt insanlar yaşlandıqca və səhhətləri zəiflədikcə baş verir. | |
| **Tutacaq** | Şəxsin öz müvazinətini saxlamasına və ya hərəkətinə kömək məqsədilə tutması üçün sabit tutacaq. |  |
| **Qaldırıcı** | Transferə kömək etmək üçün asacaqdan istifadə etməklə şəxsi yuxarı qaldıran cihaz. |  |
| **İnkontinensiya** | Şəxsin öz sidik kisəsinin (sidiyi saxlaya bilməmə) və ya bağırsaqlarının (nəcisi saxlaya bilməmə) funksiyasını tənzimləməkdə çətinlik çəkməsi və ya öz istəyi ilə tənzimləyə bilməməsi. | |

| Termin | Anlayışı | Şəkli |
|---|---|---|
| **Duruş dəstəkləri** | Duş və ya tualet kreslosuna əlavə edilən və şəxsi əlavə dəstəklə təmin edən əlavələr. Duruş dəstəklərini ixtisaslı bir şəxs yazmalıdır. Duş və ya tualet kreslosundakı duruş dəstəklərinə misal olaraq aşağıdakıları göstərmək olar:<br>• Dolama kəmər<br>• Əlavə yan dəstəyi<br>• Baş üçün dəstək. |  |
| **Təzyiq nəticəsində əmələ gələn yara** | Təzyiq nəticəsində əmələ gələn yara dərinin bütövlüyünün pozulmasıdır. Adətən sümüklü yerin üzərində olur və hissiyyat problemləri olan və ya hərəkət etməkdə və pozasını dəyişdirməkdə çətinlik çəkən şəxslərdə geniş yayılmış problemdir. | |
| **Onurğa beyni zədəsi** | Adətən qəza və ya xəstəlik nəticəsində onurğa beyninin zədələnməsidir. Onurğa beyni zədəsindən sonra bədənlə beyin arasındakı onurğa beyni boyunca mesajlar ötürülə bilmir. Bir çox hallarda şəxs hərəkət edə bilmir (iflic olur) və zədədən aşağı hissəni hiss edə bilmir. | |
| **İnsult** | Beyində qan dövranına maneə yaranması. Bədənin bir hissəsinin zəifləməsinə və ya iflic olmasına, həmçinin danışmaqda və hissiyyatda problemlərə səbəb ola bilər. | |
| **Tualet növləri:** | | |
| • **Oturma tualet** | İnsanların istifadə etmək üçün oturduqları tualet forması. |  |
| • **Çöməlmə tualet** | İnsanların istifadə etmək üçün çöməldikləri tualet forması. |  |

| Termin | Anlayışı | Şəkli |
|---|---|---|
| **Transfer** | Bədəninizi bir yerdən başqa yerə hərəkət etdirmək. |  |